# “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 307-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci, 23-cü və 27-ci bəndlərini rəhbər tutaraq, “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 307-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** “Avtomobil yolları haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 125 (Cild I); 2024, № 3, maddə 248; 2025, № 1, maddə 13, № 4 (I kitab), maddə 318; 2026, № 4, maddə 292) 2-ci maddəsinin üçüncü hissəsində “və” sözü vergül işarəsi ilə əvəz edilsin və həmin hissəyə “vasitələrinin” sözündən sonra “və mopedlərin” sözləri əlavə edilsin.

**Maddə 2.** “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740 (Cild I); 2024, № 1, maddələr 10, 16, № 6 (I kitab), maddə 637, № 7, maddələr 747, 751, 775, № 8, maddə 933, № 11, maddə 1187, № 12 (II kitab), maddə 1351; 2025, № 1, maddə 1, № 2, maddə 101, № 4 (I kitab), maddələr 318, 322, № 5, maddə 433, № 6, maddələr 521, 524, № 7, maddə 626, № 12 (I kitab), maddələr 1118, 1129; 2026, № 1, maddələr 8, 13, 20; Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 413-VIIQD nömrəli Qanunu) 18.65-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 18.65.1.2-ci, 18.65.2.2-ci, 18.65.3.2-ci və 18.65.6.3-cü maddələrə ismin müvafiq hallarında “yarımqoşqular” sözündən sonra “, habelə mopedlər” sözləri əlavə edilsin;

2.2. 18.65.4.1-ci və 18.65.4.1-1-ci maddələrə “vasitələrinin,” sözündən sonra “o cümlədən mopedlərin, habelə” sözləri əlavə edilsin;

2.3. 18.65.5.1-ci və 18.65.7.1-ci maddələrə “vasitələri” sözündən sonra “, o cümlədən mopedlər” sözləri əlavə edilsin.

**Maddə 3.** “İcbari sığortalar haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 788 (Cild I); 2025, № 1, maddə 16, № 4 (I kitab), maddə 315; Azərbaycan

Respublikasının 2026-cı il 26 may tarixli 413-VIIQD nömrəli Qanunu) 50-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 50.1-ci maddəyə “vasitələrinin” sözündən sonra “və mopedlərin” sözləri əlavə edilsin;

3.2. 50.2-ci maddəyə ikinci halda “vasitələrinin” sözündən sonra “, habelə mopedlərin” sözləri əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 10 iyul 2026-cı il
№ 439-VIIQD